Xalq qəzeti.- 2022.- 5 noyabr. S. 5



**Müasir dövrdə xalqı arxasınca aparan, dövlət həyatında önəmli rol oynayan partiyanın gücü və səmərəli fəaliyyəti onun liderinin şəxsi keyfiyyətləri, ən mürəkkəb şəraitdə məsuliyyəti öz üzərinə götürmək cəsarəti, tərəfdarlarının ideya-mənəvi birliyini, siyasi iradəsini səfərbər edərək cəmiyyətdəki prosesləri düzgün məcraya yönəltmək bacarığı ilə ölçülür. Ölkəmizdə məhz belə bir siyasi güc 30 il əvvəl dövlət müstəqilliyinin yenicə qazanıldığı təlatümlü dövrdə ulu öndər Heydər Əliyevin liderliyi ilə yaranmış və son 19 ildə müdrik Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz fəaliyyətini inamla davam etdirən Yeni Azərbaycan Partiyasıdır.**

# Müstəqil dövlətimizin monolit siyasi dayağı

Dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin çətin vəziyyətə düşdüyü və parçalanmaq təhlükəsi ilə üzləşdiyi çox mürəkkəb bir vaxtda, zamanın tələbindən yaranan Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilməsi xalqımızın dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin nəhəng şəxsiyyətinə inamının, etimadının tarixi nəticəsi oldu. Ümummilli liderin zəka və iradəsi ilə əsl ümumxalq partiyası yaradılması o zaman ölkəmizdə gedən xoşagəlməz proseslərin qarşısının alınmasında müstəsna rol oynadı.

Ölkədə müstəqilliyi xilas edib möhkəmləndirəcək bir partiya qurulmasının vətənpərvər təşəbbüsçüləri Heydər Əliyevə müraciətlərində bildirmişdilər: "Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük".

Xalqın arzularından qaynaqlanan bu müraciətdə ifadə olunmuş ümidi, inamı, etimadı ulu öndər müstəsna bir cəsarət, qətiyyət və müdrikliklə doğrultdu. Həmin dövrdə ölkəmizin ictimai-siyasi həyatına böyük ümid və canlanma gətirən bu partiya müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsində, inkişafında misilsiz xidmətlər göstərdi. İdeya-siyasi məfkurəsi müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətəndaş həmrəyliyi və sosial ədalət kimi ən mühüm prinsipləri ehtiva edən Yeni Azərbaycan Partiyası bu gün həm də beynəlxalq arenada yaxşı tanınan və geniş əlaqələri olan nüfuzlu siyasi təşkilatdır.

İstər ulu öndər Heydər Əliyevin, istərsə də onun sadiq davamçısı Prezident İlham Əliyevin liderliyi ilə partiya ötən 30 ildə ölkəmizin müstəqilliyi yolunda qazanılmış bütün uğurlara, nailiyyətlərə layiqli töhfələrini verib. Təsis olunduqdan az sonra qurtuluş hərəkatının önündə addımlayan və onun uğurla başa çatdırılmasına nail olan, xalqın güclü dəstəyi ilə iqtidara gələn YAP ötən 30 ildə demokratik şəraitdə keçirilən parlament və prezident seçkilərində böyük üstünlüklə qalib gəlib.

Ölkəmizin sürətli inkişafı, sosial-iqtisadi yüksəlişi, beynəlxalq aləmdə mövqelərinin güclənməsi, ən başlıcası, partiyanın rəhbəri, möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hərbi-siyasi, diplomatik qətiyyəti, rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması mütəşəkkil və monolit siyasi təşkilat kimi Yeni Azərbaycan Partiyasının da cəmiyyətdə nüfuzunu yüksəldib.

30 il əvvəl respublikanın müxtəlif bölgələrindən Naxçıvana gəlib Heydər Əliyev dühasının işığına toplaşmış 550 nəfərin iştirakı ilə qurulan partiya indi sıralarında 700 min nəfərdən çox ölkə vətəndaşını vahid əqidə və ali məram ətrafında sıx birləşdirib. Dinamik fəaliyyəti ilə hakimiyyətin əsas qollarından birində – parlamentdə mütləq çoxluq təşkil edən, ölkəmizdə siyasi mədəniyyətin formalaşmasında mühüm rol oynayan YAP konstitusiya quruluşunun qanunvericilik əsaslarının möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirakı ilə seçilir.

Müasir dövrdə YAP-ın fəaliyyət üslubu onun ötən il keçirilən VII qurultayında təsdiq edilmiş Nizamnaməsində aydın şəkildə ifadə olunub. Partiyanın proqram sənədlərində isə siyasi hədəflərlə yanaşı, sabit və sosialyönümlü iqtisadiyyatın yaradılması, firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması da əsas məqsədlər kimi qarşıya qoyulub. Azərbaycan iqtisadiyyatının ilbəil güclənməsi, dövlətimizin gəlirlərinin daim artması nəticəsində xalqımızın rifahı davamlı olaraq yaxşılaşır. Bu isə ölkə rəhbərinin həyata keçirdiyi sosial-iqtisadi islahatlar sayəsində mümkünləşir.



Partiyanın əsas məqsədlərindən biri də ümummilli lider, partiyanın qurucusu Heydər Əliyevin irsinin təbliği və təşviqidir ki, bu sahədə ulu öndərin adını daşıyan fondun misilsiz xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fondun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəni, sosial, humanitar sahələrdə təşəbbüsləri ölkəmizin və xalqımızın hərtərəfli inkişafının təmin edilməsi ilə yanaşı, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına, beləliklə, ümummilli liderin müəyyənləşdirdiyi və uğrunda fədakarlıqla mübarizə apardığı ideyaların və strateji məqsədlərin uğurla gerçəkləşməsinə yönəlib.

Artıq iki ildir ki, ölkəmizin və xalqımızın həyatında yeni dövr başlanıb. Möhtərəm Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsindən az sonra keçirilən partiyamızın VII qurultayındakı nitqində qürur mənbəyimiz, Azərbaycan tarixində misli olmayan Qələbəmizin əsrlər boyu xalqımızın qəlbində yaşayacağını qeyd edərək, işğaldan azad olunmuş ərazilərin, Qarabağın bərpası ilə bağlı məsələlərin partiyanın və dövlətin planlarında xüsusi yer tutacağını bildirdi. Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, məcburi köçkün yurddaşlarımızın öz daimi yaşayış yerlərinə qayıdışının təmin edilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı işlər, möhtəşəm fəaliyyət dövlətimizin başçısının bu yöndə müəyyənləşdirdiyi hədəflərin ardıcıllıqla gerçəkləşdiyini göstərir.

Bölgədə və ölkəmizdə hazırda mövcud olan geosiyasi vəziyyət YAP-ın və çoxminlik üzvlərinin qarşısında məsul vəsifələr qoyur, yeni imkanlar açır. Vətən müharibəsi ərəfəsində və ondan sonra aparılan partiyadaxili islahatlar cəmiyyətin bu avanqard qüvvəsinin daha da güclənməsini, ölkədə sağlam və plüralist siyasi mühitin inkişafını, həmçinin partiya üzvlərinin yeni dövrün və partiya rəhbərliyinin tələblərinə uyğun fəaliyyət göstərməsini şərtləndirib.

Azərbaycanın erməni faşizmi üzərində qələbəsi dostlarımızı nə qədər sevindirirsə, düşmənlərimizi və onların himayədarlarını bir o qədər məyus edir. Düşmən dairələr və qüvvələr ən müxtəlif vasitələrlə xalqımızın və dövlətimizin mənafelərinə zərbə vurmağa, xüsusən də, ideoloji-mənəvi dəyərlərimizi sarsıtmağa uğursuz cəhdlər göstərirlər. Ancaq çox təəssüf ki, düşmən dəyirmanına su tökməkdən ar etməyən, "sapı özümüzdən olan" baltalar da bu cəhdləri fürsət bilib müxtəlif sosial platformalarda və xarici mediada fəallaşırlar. Məhz belələrinə qarşı mübarizədə cəmiyyətimizin vətənpərvər kəsimi, ilk növbədə, YAP üzvləri cəsarətli, qətiyyətli, səbatlı olmalıyıq.

İnamla deyə bilərik ki, vaxtilə ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə "dünənin, bu günün və gələcəyin partiyası" kimi səciyyələndirdiyi Yeni Azərbaycan Partiyası daim müstəqil dövlətimizin monolit siyasi dayağı olacaqdır!

**Mahir ABBASZADƏ,**
**Milli Məclisin deputatı**